# I Avropa Oyunlarının Bakıda keçirilməsi Azərbaycanın artan nüfuzunun göstəricisidir



**Azərbaycanın qazandığı nailiyyətlər beynəlxalq müstəvidə də etiraf olunur və yüksək qiymətləndirilir. Ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun nəticəsidir ki, bir çox mötəbər təşkilatlar öz tədbirlərinin Azərbaycanda keçirilməsi haqqında qərarlar qəbul edirlər. Həmin tədbirlər siyasi, iqtisadi, humanitar və digər sferaları əhatə edir. Bunların arasında beynəlxalq idman tədbirlərini də xüsusi vurğulamaq yerinə düşər.**

Odlar yurdunun idman müstəvisində beynəlxalq nüfuzu güclənməkdə və bu istiqamətdə beynəlxalq aləmdə ölkəmizin uğurları artmaqdadır. Azərbaycanda idmanın inkişafı dövlətin əsas diqqət ayırdığı istiqamətlərdən biridir. Ölkəmizdə gənclərin inkişafına həsr olunan Dövlət proqramlarında idmanın inkişafı məsələsi prioritet olaraq müəyyənləşdirilir. Azərbaycanda Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin hər bir bölgəsində müasir idman komplekslərinin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi respublikamızda idmanın inkişafını təmin edib.

Avropa Olimpiya Komitəsinin 2012-ci il dekabrın 8-də Romada keçirilmiş 41-ci Baş Assambleyasında ilk Avropa Oyunlarının 2015-ci ildə Azərbaycanda təşkili haqqında böyük səs çoxluğu ilə qərar qəbul edilmişdir. Qərarın qəbul edilməsində bir çox amil öz rolunu oynayıb. Ölkəmizin artan beynəlxalq nüfuzu, Azərbaycanın idman ölkəsi kimi tanınması, sosial-iqtisadi uğurları, infrastrukturunun müasir tələblər səviyyəsində qurulması və sair bu kimi nailiyyətlər dünyanın diqqətini çəkən məsələlərdir. Həmçinin, bu tədbirin baş tutması üçün ölkəmizdə əvvəlcədən möhkəm baza yaradılıb. Prezident İlham Əliyevin Milli Olimpiya Komitəsinə rəhbərliyi müddətində respublikada nəhəng idman infrastrukturu yaradılmış, bu proses təkcə paytaxtımızı deyil, bütün regionları əhatə etmişdir.

Azərbaycan özünün sürətli inkişafı sayəsində Avropa Oyunlarına ev sahibliyi etmək hüququ qazanıb. Bu, Azərbaycanın iqtisadi inkişafının, siyasi sabitliyinin, təhlükəsiz dövlət olmasının, dünyanın aparıcı idman ölkələrindən birinə çevrilməsinin məntiqi nəticəsi, həmçinin, sadalanan uğurların Avropa səviyyəsində etirafıdır. Ümumilikdə isə, Azərbaycan Avropanın müasir infrastruktura malik lider idman ölkələrindən biridir.

Prezident İlham Əliyev də bu qərarı tarixi hadisə kimi dəyərləndirib: "Bu, doğrudan da, tarixi hadisədir. Çünki bu vaxta qədər Avropa Olimpiya Oyunları keçirilməmişdir və ilk Oyunların Bakıda keçirilməsi böyük tarixi hadisədir, ölkəmizin böyük uğurudur".

Avropa Oyunları Təşkilat Komitəsinin ilk iclası zamanı çıxışında bu məsələlərə toxunan Prezident İlham Əliyev qeyd edib ki, bizim artıq mötəbər beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı gözəl təcrübəmiz vardır. İlk Avropa Oyunlarının bütün dünyanın diqqət mərkəzində olduğunu nəzərə alsaq, bu tədbir Azərbaycanın beynəlxalq müstəvidə nüfuzunu daha da gücləndirən amil olacaq.

I Avropa Oyunları Avropanın idman tarixində ilk qitə yarışmasıdır. Ölkəmiz Avropa tarixinə yeni bir səhifə yazacaq. Bundan 100 il sonra da ilk Avropa Oyunları tarixinə nəzər salınanda bu yarışların ilk dəfə Azərbaycanda keçirildiyi fəxarətlə qeyd ediləcək. Mübaliğəsiz demək olar ki, bu, ölkəmiz üçün qürurvericidir.

Baxmayaraq ki, hazırlıq üçün bizim cəmi iki il yarım vaxtımız olub, Azərbaycan bu Oyunları ən yüksək səviyyədə, Yay Olimpiya Oyunları səviyyəsində keçirmək əzmindədir. Bunun üçün bütün lazımi tədbirlər həyata keçirilir, Təşkilat Komitəsi çalışır.

İlk Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün dövlət tərəfindən bütün lazımi tədbirlər görülmüşdür. Bildiyimiz kimi, ötən zaman ərzində Avropa Oyunları Təşkilat Komitəsinin iclasları keçirilib, iclaslar zamanı bu beynəlxalq idman müsabiqəsinə hazırlıq məsələləri kompleks surətdə müzakirə predmetinə çevrilib. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın sədrlik etdiyi Komitənin iclasları zamanı müzakirə edilən məsələlər deməyə əsas verir ki, Avropa Oyunlarının keçirilməsi istiqamətində strateji prioritetlər məlumdur.

Ölkəmizin Olimpiya Oyunları kimi bir nömrəli idman yarışına ev sahibliyi etmək iddiasını ortaya qoyması və namizədliyini rəsmi şəkildə irəli sürməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır və Avropa Olimpiya Komitəsinin 2015-ci ildə birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar qəbul etməsinin kökündə də məhz bu amillər dayanır.

Dünyanın siyasətçiləri və politoloqları Azərbaycanda keçiriləcək I Avropa Oyunlarının ölkəmiz üçün olan əhəmiyyətini yüksək qiymətləndirirlər. Hamı qəbul edir ki, siyasi baxımdan ilk növbədə Azərbaycan beynəlxalq nüfuzunu artıracaq, bütün dünyanın diqqəti Azərbaycana yönələcək ki, bu da ölkəyə özünü dünyaya təqdim etmək üçün bir imkan yaradacaq.

Dünyanın diqqətinin Azərbaycana yönəlməsi ölkəyə iqtisadi dividendlər də gətirəcək. İlk növbədə bu, Azərbaycana turistlərin marağını xeyli artıracaq və həttə Oyunlardan sonrakı dövrdə də uzun zaman ölkə iqtisadiyyatının çiçəklənməsinə xidmət edəcək.

Bundan əlavə, idmançılarla yanaşı, bu Oyunları izləmək üçün Azərbaycana çoxlu sayda tamaşaçı da gələcək. Təbii ki, bu da öz növbəsində ölkədə yerli biznesin inkişafına öz töhfəsini verəcək. Azərbaycan bu oyunlara ev sahibliyi etməklə bir çox istiqamətdə böyük faydalar əldə edəcək.

Oyunlar zamanı dünyanın bir sıra nəhəng şirkətləri öz məhsullarını reklam etmək üçün xeyli vəsait xərcləyəcəklər. Azərbaycanın özünün reklamı daha önəmlidir. Erməni lobbisinin və onların havadarlarının Azərbaycana hər gün ləkə yaxdığı bir dövrdə bizim daha çox buna ehtiyacımız var.

Bundan başqa tikilən və yenidən qurulan idman qurğuları, turizm obyektləri, müasir infrastruktur oyunlardan sonra da ölkəmizə, əhalimizə xidmət edəcək, bu yarışların keçirilməsi kiçik ticarət və iaşə sahəsində çalışan sahibkarların xeyrinə işləyəcək.

Qonaqlar bir daha Azərbaycanda gedən iqtisadi inkişafı, Azərbaycanın uğurlarını, Azərbaycanda milli cəhətdən heç bir problemin olmadığını görəcəklər. Və gedəndə də Azərbaycanda gördükləri şəraiti öz ölkələrində danışacaqlar.

Avropa Oyunlarına gələn hər bir insanın Azərbaycan haqqında düşüncələri dəyişəcək. Onlar Azərbaycanın mədəniyyəti ilə, tarixi ilə, qonaqpərvərliyi ilə tanış olacaqlar. I Avropa Oyunları Azərbaycan mətbəxini dünyaya təqdim etmək istiqamətində də öz bəhrəsini verəcəkdir.

I Avropa Oyunları Azərbaycanın paytaxtı Bakıda ədalət, sağlam rəqabət, dostluq və həmrəylik şəraitində keçəcək və ölkələri, xalqları, insanları bir araya gətirərək möhtəşəm idman bayramına çevriləcək. İnanıram ki, Azərbaycan idmançıları qələbə uğrunda əzmlə mübarizə aparacaq, əksər idman növlərində ölkəmizin bayrağını dalğalandıracaq, himnini səsləndirəcəklər. Mən bu mötəbər yarışlarda bütün Azərbaycan idmançılarına uğurlar arzulayıram.

**Tahir SÜLEYMANOV,**
**millət vəkili.**